**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

**Əlyazması hüququnda**

**AYTƏN VAHİD QIZI ƏHMƏDOVA**

# MÜASİR AZƏRBAYCAN NƏSRİNİN METOD-ÜSLUB TİPOLOGİYASI

**5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

## A V T O R E F E R A T I

**Bakı – 2015**

İş AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Rəhilə Məmməd qızı Qeybullayeva**<br>Filologiya üzrə elmlər doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Himalay Ənvər oğlu Qasımov**<br>Filologiya üzrə elmlər doktoru, professor |
| | **Rəhim Nadir oğlu Əliyev**<br>Filologiya üzrə elmlər doktoru |
| **Aparıcı təşkilat:** | **Bakı Slavyan Universiteti**<br>**Ədəbiyyat nəzəriyyəsi kafedrası** |

Müdafiə " 30 "-06- 2015-ci il saat da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az.1143, Bakı, H.Cavid prospekti 115, Akademiya şəhərciyi , Əsas korpus, Nizami adına Ədəbiyyat İnstitutu, Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat _______________ 2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi filologiya üzrə elmlər doktoru, professor : **İmamverdi Yavər oglu Həmidov**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Azərbaycan bədii nəsri özünün zəngin yaradıcılıq ənənələri, mövzu və üslub təmayülləri, poetika-struktur əlamətləri baxımından milli ədəbi-tarixi təcrübənin özünəməxsus bir sahəsi kimi böyük bir inkişaf yolu keçmişdir. Xalqımızın müstəqillik əldə etməsində bir çox ictimai-tarixi hadisələr, mədəni-mənəvi dəyərlərlə bir sırada həmin dövr ədəbiyyatının da bilavasitə rolu olmuşdur. Dövrün bütün mürəkkəbliyini, ziddiyyətini, habelə obyektiv sosial-tarixi şəraiti nəzərə almaqla, 1920-90-cı illər ədəbi prosesini, bu prosesin həm bədii yaradıcılıq məhsullarını, həm də ədəbiyyatşünaslıq və ədəbi tənqid əsərlərini yenidən müasir elmi və nəzəri-estetik tələblər baxımından hərtərəfli təhlil və tədqiq etmək zərurəti yaranır. Azərbaycan nəsri Sovet dövründə həm monoqrafik tədqiqatlarda, həm də problem səciyyəli məqalələrdə tədqiq olunmuşdur, lakin, təbii olaraq, bu araşdırmalarda sosialist realizmi konsepsiyasından irəli gələn fikir və mülahizələr əsas yer tuturdu. Düzdür, 60-cı illərdən başlayaraq nəsrimiz həm də yeni ədəbi-nəzəri meyar və ölçülərlə də tədqiq olunmuşdur. Bu proses müstəqillik dövründə davam və daha da inkişaf etdirilmişdir.

Bu gün müasir nəsrə böyük bir maraq var, həmin nəsrin həm ideoloji baxımdan, həm bədii-estetik baxımdan öyrənilməsi ədəbiyyatşünaslığımızda aktuallıq kəsb etmişdir.

Son illər müasir nəsrin həm tipoloji cəhətdən, həm mövzu baxımından və həm də bədii-estetik kateqoriyalar üzrə tədqiqata cəlb olunması, xarakter-şəxsiyyət, yeni nəsr və bu nəsrin metod və üslub tipologiyası, psixoloji təhlilin mövcudluğu mövzunun aktuallığını artıran faktorlardandır. Bu gün "metod" termini haqqında qəbul edilmiş kanonik və ondan fərqlənən konsepsiyalar var. Digər tərəfdən hər bir yazıçının özünəməxsus üslub və metoda malik olması mövzunun arealını daha da genişləndirir.

Yeni dövrdə təkcə postsovet məkanında deyil, o cümlədən, dünya ədəbiyyatında əhəmiyyətli dəyişikliklər baş verməkdədir. Bu proseslər Azərbaycan ədəbiyyatında da öz əksini tapır, metod və üsluba da təsirsiz qalmır. Bu nöqteyi-nəzərdən müasir Azərbaycan nəsrinin metod-üslub tipologiyasını yeni təfəkkür müstəvisində öyrənmək, milli ədəbiyyatın parametrlərini müəyyən etmək və xarici ədəbiyyatla paralellər aparmaq vacibdir. Bu gün müasir Azərbaycan nəsrində Anar, Elçin, K.Abdulla, A.Məsud, Y.Səmədoğlu və digər görkəmli yazıçıların əsərləri bu təhlilləri

aparmaq üçün zəngin materiallar verir.

***Mövzunun tədqiq tarixi***. Problem ötən əsrin ortalarında Azərbaycan ədəbiyyatında öz əksini tapmışdır. Bu isə, ilk növbədə predmetin özü ilə bağlıdır. Əsrin ikinci yarısı Azərbaycan nəsrinin hər şeydən əvvəl insanın mənəvi aləminə nüfuz etməsi ilə səciyyələnməsi tədqiqatçılar tərəfindən geniş qeyd olunmuşdur. Bu nəsrin insanın, milli tarixin, milli şüurun hərtərəfli inikasına yönəlmiş yaradıcılıq axtarışları özü ilə bərabər metod-üslub tipologiyasını da aktuallaşdırır. Geniş elmi izahat tələb edən bu məsələyə dair Y.Qarayev, B.Nəbiyev, Ş.Salmanov, N.Cəfərov, N.Qəhrəmanlı, Ş.Alışanlı, N.Şəmsizadə, T.Alışanoğlu, Anar, Elçin, A.Abdulla-zadə, M.Hüseyn, C.Məmmədli, A.Hüseynov, V.Quliyev, V.Yusifli və digər alimlər tədqiqatlar aparmış, öz fikir və mülahizələrini ortaya qoymuşlar [1].

Yaşar Qarayevin XX əsr ədəbiyyatşünaslığında böyük xidməti onun nəzəriyyə sahəsindəki araşdırmaları, xüsusən yaradıcılıq metodu kateqoriyasının tədqiqindəki fundamental əsərləridir. Yaşar müəllimin bədii metod sahəsindəki araşdırmaları yeni dövr ədəbiyyatımızı şərtləndirən ictimai, bədii-fəlsəfi amillər fonunda aparılır, bir növ XIX-XX əsrlər ədəbiyyatı universal bir kateqoriyanın tarixi inkişaf prosesi fonunda təhlil edilir. Alimin mülahizələrindən dissertasiyada tez-tez istifadə olunur. Ümumiyyətlə, istər 1960-80-ci illərin nəsri, istərsə də postsovet nəsrinə həsr olunmuş tədqiqatlarda bu və digər dərəcədə metod-üslub tipologiyası probleminə toxunulmuşdur. Lakin bununla belə etiraf olunmalıdır ki, müəyyən ədəbi-tənqidi materialın ədəbiyyatşünaslıqda

---

[1]Qarayev Y. Ağ limandan başlayan yol. Anar. Seçilmiş əsərləri: iki cilddə, I cild., Bakı: Azərnəşr, 1988,451s.; Qarayev Y. Ən yeni Azərbaycan ədəbiyyatı (iyirminci illərdən günümüzə qədərki yaddaş) // Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı:“Sabah”, 1995, 712 s.; Qarayev Y. Duyğuların rəngi (ön söz): Elçin. Bu dünyadan qatarlar gedər. Bakı: Azərnəşr, 1974, 234s.; Qarayev Y. Meyar-şəxsiyyətdir. Bakı: Yazıçı, 1988, 451s.; Qarayev Y. Poeziya və nəsr. Bakı: Yazıçı, 1979, 198 s.; Qarayev Y. Tənqid: problemlər, portretlər. Bakı:Azərnəşr, 1976, 912 s.;

Quliyev V. Nəsrdə tarixi mövzu toplusu. Bakı: Elm, 1988, 173s.;

Mehdi Hüseyn. Yeni mərhələ, yeni vəzifələr// Azərbaycan” jurnalı, 1962, №7,s.13-23.; Salmanov Ş.Müasirlik problemi və nəsrin axtarışları (Eyni adlı yaradıcılıq müşavirəsinin materialları) // “Azərbaycan” jurnalı, Bakı, 1977, № 3; Yusifli V. Müstəqilliyimiz və ədəbiyyatımız // Yusifli V. Tənqid və bədii söz. Bakı: Mütərcim, 2002, 208 s.;

öyrənilməsi səviyyəsi ilə tamamilə kifayətlənmək olmaz. Bu nəsrin lazımınca və dəyərincə öyrənilməmiş məsələləri və xüsusiyyətləri vardır ki, təqdim olunan dissertasiya işində buna təşəbbüs göstərilir. Mövcud tədqiqatların bir çoxu əsasən birtərəfli xarakter daşımış, postsovet dövründə metod-üslub tipologiyasının müqayisəli təhlili, eləcə də bu dövrdə yazılan əsərlər bir gədər kölgədə qalmışdır, yəni yetəri qədər araşdırılmamışdır. Bu baxımdan R. Qeybullayevanın "Сравнительная типология прозы и литературные типы"[1], T. Əlişanoğlunun "XX əsr Azərbaycan nəsrinin poetikası"[2], İ. İlyinin "Poststrukturalizm. Dekonstruktivizm. Postmodernizm"[3] kimi tədqiqatlarında bu istiqamətdə olan araşdırmaları xüsusilə diqqət cəlb edir.

Yuxarıda sadaladığımız mövzulara maraq bu günümüzdə də olduqca böyükdür. Tədqiq olunan dissetasiyada ilk dəfə postsovet nəsrinin ardıcıl proses kimi, tam və sistemli şəkildə müqayisəli təhlili də aparılmışdır, müasir nasirlərin əsərləri tədqiq olunmuş, yeni elmi mülahizələrlə yanaşı, rus və qərb tədqiqatçılarının araşdırmalarındakı müddəa və qənaətlər də nəzərə alınmışdır.

***Tədqiqatın predmeti və obyekti.***. Tədqiqatın predmeti 1960-80-ci illər və postsovet dövründə yazılmış nəsr nümunələridir.

Tədqiqatın obyektini isə Sovet dövrü ədəbiyyatşünaslığında mövzu ilə bağlı nəşr olunan elmi-nəzəri materiallar təşkil edir.Müasir nəsrlə bağlı tədqiqatlar da dissertasiyanın əsas obyekt və predmetinə daxildir.

***Tədqiqatın məqsədi və vəzifələri*** nəzərdə tutulan dövrdə müasir nəsrdə baş verən yenilikləri və keyfiyyət dəyişikliklərini nəzərə çatdırmaq, yeni nəsr nümunələrini, üslub və metod baxımından təhlil etmək, eləcə də, postsovet dövrü ədəbiyyatında metod və üslub tipologiyasını izləmək və bu anlayışlar ətrafında mövcud konsepsiyaları bədii nəsrin inkişafı axarında təhlilə cəlb etməkdir. Qarşıya qoyulan məqsəddən isə aşağıdakı elmi-tədqiqat vəzifələri irəli gəlir:

-Metod və üslub haqqındakı konsepsiyalar fonunda bu anlayışların nəzəri aspektlərini müəyyənləşdirmək;

---

[1]Гейбуллаева Р. Сравнительная типология прозы и литературные типы. Баку: Наука. 2000, 295 с.

[2]Əlişanoğlu T. XX əsr Azərbaycan nəsrinin poetikası Bakı:Elm, 2006,213s.

[3]Ильин И. Постструктурализм. Деконструктивизм.Постмодернизм. Москва: Интрада, 1996 г , 227 с.

-Müasir Azərbaycan nəsrinin hər iki mərhələsinin xüsusiyyətlərini müqayisə etmək, "yeni nəsr" mərhələsinin postsovet nəsrinə təsir istiqamətlərini məyyənləşdirmək;

-Hər iki mərhələnin nəsrini sələf-xələflik kontekstində təhlilə cəlb etmək;

-Azərbaycan nəsrinin sovet mərhələsinin son pilləsi olan "ən yeni nəsr"də sosialist realizminin mövqeyini müəyyənləşdirmək;

-Yeni yaradıcılıq metod və axtrarışları, onların spesifik xüsusiyyətləri barədə yekdil qənaət formalaşdırmaq;

-Hər iki mərhələdə nəsrin metod-üslub tipologiyasını müəyyənləşdirərək, zaman və mühit kontekstində təhlilə cəlb etmək.

***Dissertasiyanın elmi yeniliyi*** ondan ibarətdir ki, ilk dəfə bu tədqiqat işində müasir nəsrdə metod-üslub tipologiyası müəyyənləşdirilir, onun müqayisəli təhlili aparılır.

60-cı illərdəki novator yazarların yeni mərhələdə, postsovet məkanında yenilikçi gənc nəsildən fərqlərinin müəyyənləşdirməsi önəmlidir. 60-80-ci illərdə Azərbaycan nəsrində öz fərdi üslubu, dəsti-xətti ilə seçilən yazıçıların əsərlərini tədqiq fonunda, metod-üslub tipologiyasının müqayisəli təhlili də ilk dəfə bu dissertasiyada aparılmışdır. Postsovet dövrü aspektləri təcrid edilmiş formada deyil, hələ Sovet dönəmində başlamış yeniləşmə ənənəsinin faktı kimi araşdırılır. Tədqiqatda postsovet dövrü Azərbaycan ədəbiyyatının görkəmli nasirləri olan Anarın "Ağ qoç-qara qoç", K.Abdullanın "Yarımçıq əlyazma" əsərlərinə müraciət olunur və onlar metod-üslub tipologiyası prizmasında araşdırılır. Hər iki əsər həm öz orijinallığı, həm də folklor və xalq yaradıcılığı elementləri ilə, eləcə də yeni bədii təfəkkür işığı ilə müasir nəsrdə seçilir. Ədəbiyyatın folklora, mifə, keçmişə qayıdışını ayrı-ayrı yaradıcılıq metodları fonunda tədqiq olunması dissertasiyanın başlıca istiqamətlərindəndir.

***Dissertasiyanın metodoloji əsası.***Tədqiqatda tarixi-müqayisəli və analitik metodlardan istifadə edilmişdir. Araşdırmada Azərbaycan ədəbiyyatşünaslığının elmi-nəzəri təcrübəsinə, eləcə də dünya ədəbi-estetik fikir tarixində mühüm rol oynamış alimlərin ədəbiyyat haqqında dəyərli mülahizələrinə istinad edilmişdir.

***Dissertasiya işinin nəzəri-praktiki əhəmiyyəti***. Tədqiqat işində əldə edilən qənaət və nəticələr metod və üslub tipologiyasının öyrənilməsində faydalı ola bilər. Dissertasiya işindən həmçinin ali məktəblərdə tədris vəsaiti kimi istifadə oluna bilər.

***Dissertasiya işinin aprobasiyası.*** Dissertasiya işi AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Ədəbiyyat nəzəriyyəsi" şöbəsində yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları və müəllifin gəldiyi nəticələr elmi konfransda məruzə, elmi toplularda məqalə şəklində işıq üzü görmüşdür.

***Dissertasiya işinin strukturu***. Tədiqat işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş elmi və bədii ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

***Girişdə*** problemin aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti aydınlaşdırılır.

Dissertasiyanın ***birinci fəsli "XX əsrin 60-cı illərindən formalaşan yeni nəsrdə metod və üslub tipologiyası"*** adlanır. Bu fəsil XX əsrin 60-cı illərindən formalaşan yeni nəsrdə metod-üslub tipologiyasına həsr olunub. Burada metod və üslub anlayışları tədqiq edilir, terminlərin oxşar və fərqli xüsusiyyətləri dəqiqləşdirilir. Eləcə də E.Zolya, R.Dekart, V.Belinski və N.Çernişevski kimi mütəfəkkirlərin metod və üslub haqqında nəzəri fikirləri müqayisə edilərək, optimal nəticələr əldə edilir. Azərbaycan tənqidçilərindən Ə.Nazimin, H.Zeynallının, M.Hüseynin metodla bağlı fərqli düşüncələri də tədqiqata cəlb olunub. Ədəbi cərəyanların konsepsiyasına uyğun olaraq metod və üslubun spesifik xüsusiyyətləri müəyyənləşdirilir.

*Fəslin* ***birinci yarımfəsli "Metod və üslub anlayışları, bu terminlər ətrafında mövcud konsepsiyalar"*** adlanır. Bu yarımfəsildə metod, ədəbi prosesi təşkil edən digər komponentlər – "cərəyan", "axın", "üslub" ilə qarşılaşdırılır. Müəyyənləşdirilir ki, həmin kateqoriyalar bir-biri ilə daim qarşılıqlı əlaqədə olsalar da, onları fərqləndirən məqamlar da az deyil və bu məqamlar incəsənətin qnoseoloji və dialektik mahiyyətinin açılmasında özünü göstərir. "İncəsənətin qnoseologiyası kateqoriyası kimi bədii metod (obrazlı təfəkkür üsulu) ədəbiyyatı gerçəkliyin bu və ya digər cəhətinə və "layına" daha çox diqqət verməyə, gerçəkliyin bu və ya başqa cür şərhinə istiqamətləndirir".[1]

Artıq 20-ci illərin ortalarında "ədəbiyyatın yaradıcılıq siması", "yaradıcılıq üsulu" kimi terminlərin tənqidin leksikasına daxil olmağa

---

[1] Borev Y. Estetika. Bakı: Gənclik, 1980,s.181.

başlaması bu ehtiyacı sezdirirdi. Hətta bir qədər sonra tənqiddə "yaradıcılıq metodu" kateqoriyası tamamilə qərarlaşır. Bir çox tənqidçilər- Ə.Nazim, K.Quliyev, H.Zeynallı, M.Hüseyn və digərləri müasir ədəbiyyatı nəzərdən keçirib təhlil edərkən, bilavasitə, "yaradıcılıq metodu" ilə bağlı məsələlərə də toxunurdular. Belə ki, rus sovet tənqidində yaradıcılıq metodu ətrafında 20-ci illərin sonunda qızğın şəkil alan mübahisələr dərhal Azərbaycan tənqidində də öz əksini tapmışdır. Yaradıcılıq metodu probleminin qoyuluşunda tənqid müəyyən çətinliklərlə də üzləşirdi. Xüsusilə bədii metod haqqında birtərəfli, doqmatik görüşlər klassik irsə münasibətdə, romantizmin dəyərləndirilməsində, klassik yazıçıların ədəbiyyat tarixində mövqelərinin təyinində özünü göstərirdi. Lakin buna baxmayaraq, problemin qoyuluşu və müasir ədəbi prosesin onun işığında qiymətləndirilməsinin tənqidin çox güclü tərəflərindən biri olmasını da inkar edə bilmərik. Artıq qeyd edildiyi kimi, tənqid ədəbiyyatın metod problemini qoyarkən bu metodun hər şeydən əvvəl realizmdən ibarət olduğuna qətiyyən şübhə etmirdi. Hesab edilirdi ki, realizm bədii yaradıcılığın mahiyyətini təşkil edir və o, incəsənətin tarixi inkişafının, qədim zamanlar da daxil olmaqla bütün mərhələlərinə xasdır.

40-cı illərin sonunda, 50-ci illərin əvvəlində formalaşan konsepsiyaya görə bütün dünya incəsənəti realist və antirealistə bölünürdü, incəsənət tarixi isə obyektiv, həqiqi, realist sənətin formalaşması və yaranması tarixi olaraq məhdudlaşdırılırdı. Q.Pospelov hesab edirdi ki, metod anlayışı yalnız sənətin idraki aspektlərinə aid edilməməlidir, bədii əsərlərin məzmununun digər cəhətlərinə də tədbiq olunmalıdır. Bu nöqteyi-nəzərdən dünya incəsənətində yalnız iki metod var: realist və antirealist. Q.Pospelovdan fərqli olaraq, M.Kaqan metod problemini bədii əsərin məzmun və formasının bütün cəhətlərini nəzərə almaqla həll etməyə çalışırdı. Sənətin həyatı dərk etmə üsulu kimi yaradıcı metoda M.Kaqan dar qnoseoloji planda baxmırdı. O nəzərə çatdırır ki, metod deyəndə tipləşdirmə, ideallaşdırma, simvollaşdırmanın vahidliyini başa düşmək lazımdır. Bədii metod aparıcı, yetkin fərdi yaradıcılıq üslubları əsasında, konkret zaman hüdudları daxilində formalaşan və təşəkkül tapan tipoloji ədəbi hadisədir, seçilmiş müəyyən forma biçimində məzmun və mənanın daşıyıcısına çevrilir, ədəbi qəliblərlə mahiyyət arasında vəhdət yaradır, bütün zamanlar üçün aktuallıq kəsb edən həyatın, gerçəkliyin dərkini obrazlar vasitəsilə dinamikləşdirir. Metodlar, eyni dövrdə yaşamış söz sənətkarlarının fərqli və oxşar xüsusiyyətlərini, fərdi yaradıcılıq üslublarının inkişaf istiqamətlərini, yazıçının bədii-estetik zövqünü, dünyagö-

rüşünü şərtləndirən meylləri, bütövlükdə müxtəlif ədəbi mərhələləri və prosesləri obyektiv dəyərləndirmək meyarıdır. "Metodların sürətli təşəkkülü, möhkəmlənməsi və bir-biri ilə qarşılıqlı əlaqəsi istiqamətində intensiv hərəkətlər bizdə ən çox məhz XX əsrin ədəbiyyatında baş verir".[1]

Dissertasiyada tədqiqata cəlb olunan postsovet nəsrinin metod-üslub tipologiyasının ayrıca bir qolu olan Azərbaycan nəsrində postmodernist meyillərin təşəkkülü məsələsindən danışılarkən, postmodernizm, həm də ona yaxın olan dekonstruktivizm və poststrukturalizm kimi terminlərə də toxunulur.

Birinci fəslin ***ikinci yarımfəslində "Ədəbiyyatda fərdi üslub, üslubi təmayül, üslub tipologiyası problemi"*** tədqiq olunur. Qeyd olunur ki, yazıçının yaradıcı bir fərd kimi inkişafı bilavasitə üslubla ifadə olunur. Professor T.Hacıyev yazır: "Sənətkarın varlığa, həqiqətə münasibətinin fəallıq dərəcəsi onun üslubu ilə müəyyənləşir. Üslubun yaranmasını həyatı zərurət şərtləndirir, bu zərurəti gerçəkləndirən isə yazıçının öz şəxsiyyətidir. Bu üslubun məzmununu həyat özü diqtə edir. Onun formasının müəyyənləşməsində məzmunla formanın vəhdətində başlıca faktor isə yazıçıdır".[2]

K.Abdullayevə görə, müəllif üslubu son dərəcə fərdi, bir növ müəllifin özünə yaxın bir kateqoriya olmasına baxmayaraq, bədii mətnin quruluşunda oxucuya ən tez ötürülən işarələr sistemi xüsusiyyətinə malikdir. Müəllif üslubu bədii mətnin yaranmasının son mərhələsində ona sanki bir don kimi biçir. İlk mərhələ isə müəllifin bir növ özünün özü ilə mübarizəsi, başqa sözlə müəllifin özünü təsvir etdiyi hadisələrdən, personajlardan kənara salmağa çalışdığı mərhələdədir. "...üslub elə bir monumental kateqoriyadır ki, onu həm geniş, ümumi mənada, həm də dar, xüsusi mənada anlamaq mümkündür".[3] Misal üçün, "Kitabi Dədə Qorqud" dastanında əsərin üslubu ilə bağlı belə bir cəhət diqqəti cəlb edir: dastan qəhrəmanlarının uğradıqları müxtəlif həyat keşməkeşləri onları bir-birindən fərqləndirən əhval-ruhiyyə yaradır. Sevinc və kədər burada heç zaman bir-birinə qarışmır, biz göz yaşları içərisində sevinc və yaxud xoşbəxtliyə qarışmış ağrı görmürük, hökmən bunlardan biri əvvəlincidir, o biri sonrakı.

K.Quliyevə görə, ədəbi üslub problemi Azərbaycan filologiyasında ancaq dilçilik və fərdi üslublar baxımından öyrənilmişdir. Sosialist realizminin inkişafı ilə bağlı olan və bu inkişafdakı rəngarəngliyi,

---

[1] Qarayev.Y. Realizm:sənət və həqiqət. Bakı: "Elm", 1980, s.150.
[2] Hacıyev T. "Molla Nəsrəddin"in dili və üslubu. Bakı: Yazıcı, 1983, s.211.
[3] Abdullayev K. Müəllif-əsər-oxucu. Bakı: Yazıçı, 1985, s.119.

müxtəlifliyi əks etdirən tipoloji üslublar haqqında isə demək olar ki tədqiqatlar aparılmamışdı. Bizim araşdırdığımız mənada üslub təmayülləri fərdi üslub anlayışından daha geniş məzmun daşıyır.

Haqqında danışılan dövrün Azərbaycan nəsri C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Y.Çəmənzəminli, S.Axundov, A.Şaiq, S.Qənizadə kimi sənətkarların adları ilə bağlıdır. Maarifçi realizm, tənqidi realizm və romantizm metodları isə ədəbi prosesdə özünəməxsus üslubların fərdi variantları ilə təmsil olunurdular. Mövcud olan üslublar içərisində aşağıda adları çəkilən istiqamətlər daha çox fərqlənirdi: epik-publisistik, satirik-yumoristik və lirik-romantik.

Bu gün "Yeni Azərbaycan nəsri"nin tədqiqi Anarın, Elçinin, S.Əhmədovun və başqalarının öz fərdi üslublarını elə ilk əsərlərindən nümayiş etmələri baxımından önəmlidir. Bədii üslub əsasən ayrı-ayrı sənətkarların yaradıcılığında araşdırılmaqla yanaşı, bir neçə yazıçının, yazıçılar qrupunun yaradıcılığında da araşdırıla bilər. Üslubun bu istiqamətdə araşdırılması fərdi üslubların da daha ətraflı öyrənilməsinə kömək edir. Üslub istiqamətindən danışarkən biz, həm də ayrı-ayrı üslubların sadəcə birliyini deyil, eləcə də onların müəyyən metod əsasında vəhdətini, müəyyən ideya birliyini də nəzərdə almalıyıq. Müasir nəsrin tədqiqatçıları onun formalaşdığı ilk dövrlərdə (50-60-cı illərdə) əvvəlki ənənəvi nəsrdən fərqli olaraq yığcam formalara, kiçik həcmli janrlara meylin aparıcı olduğunu qeyd etmişlər. Hər hansı bir üslub haqqında danışarkən qətiyyətlə onun lirik və ya epik olduğunu demək bir qədər çətindir, çünki üslublar çox mürəkkəb quruluşa malik olur, bir neçə xüsusiyyətlərinə əsasən onu təyin etmək çox çətindir.

Üslub haqqında danışarkən fərdi üslub haqqında da danışmaq zəruridir. Müasir ədəbiyyatşünaslıqda "ədəbi üslub" anlayışı məhz fərdi yazıçı üslubuna əsaslanır.

Yeni ədəbi üslub və yaradıcılıq üslubu deyərkən, hər şeydən əvvəl, fərdi yazıçı üslubu başa düşülür. Fərdi üslub isə, məqsədyönlü yaradıcılıq axtarışlarının, dünya mədəniyyəti, klassik irs və müasir ədəbi proseslə hərtərəfli tanışlığın, həyat hadisələrinin dərindən-dərinə araşdırılmasının nəticəsində formalaşır. Üslub yazıçının inkişafı, irəliləyişi, yaradıcılıq prosesində formalaşaraq təkmilləşməsidir və təbii ki, fərdi üslub yazıçının yaradıcılıq təcrübəsi ilə bilavasitə əlaqəlidir. Sənətkarın dünyagörüşünün səviyyəsinin artması, dərhal özünü üslubda göstərir. Öz fərdi üslubunu yaradan yazıçı eyni zamanda ədəbiyyatda müəyyən bir novator meylin ifadəçisinə çevrilir. Və məhz bu baxımdan yaddaqalan fərdi üslubların

meydana gəlməsi həmişə novatorluqla əlaqəli olur. Yazıçının şəxsiyyətinin fərdi üslubun formalaşmasında mühüm rolu vardır. Üslub sənətkarın şəxsiyyətini təyin edən amillərdən biridir, onun intellektual inkişaf səviyyəsindən, varlığa emosional münasibətindən, etik və estetik duyumundan, milli keyfiyyətlərindən kənar mövcud ola bilməz. Çünki üslub öz əksini yalnız bədii əsərin formasında, yazılış prinsiplərində deyil, məzmun və mahiyyətində də tapır. Hər hansı bir yazıçının şəxsiyyət kimi təkrarsızlığı, tərcümeyi-halı, ictimai vəziyyəti və təfəkkür tərzi onun fərdi üslubunu formalaşdıran başlıca amillərə çevrilir.

Üslub hər zaman bu və ya digər dərəcədə mövzudan, təsvir predmetindən asılı olur və yazıçı həmişə mövzuya uyğun gələn üslubu seçməyi bacarmalıdır. Əgər bir əsərdə mövzu kənd, digərində şəhər həyatından alınarsa, məlum məsələdir ki, həmin əsərlər hətta eyni yazıçının qələmindən çıxmış olsalar da, mövzunun tələblərinə uyğun şəkildə müvafiq üslubi çalarları ilə fərqlənəcəklər. Məhz buna görə də fərdi üslubunu cilalamaq istəyən hər bir yazıçı ilk növbədə özünə son dərəcə yaxın olan, üzərində dönə-dönə, hərtərəfli müşahidələr apardığı mövzulara, həyat materiallarına müraciət edir. Eyni mənzərəni fərdi üslubla əsərin janr xüsusiyyətləri arasındakı qarşılıqlı münasibətlərdə də müşahidə etmək olar. Sənətkarın fərdi üslubunun formalaşmasında bədii təsvir vasitələrinin, dilin, milli ədəbi ənənələrin də xüsusi rolu var. Məlumdur ki, hər bir yazıçı ümumxalq dilindən özünəməxsus bir üsulla istifadə edir. Buna görə də hər bir yazıçının öz üslubu olur. Elə yazıçılar var ki, onlar ümumxalq danışıq dilindən məharətlə istifadə edirlər, belə yazıçıların üslubu da gözəl olur. Təsadüfi deyil ki, üslub nəzəriyyəçiləri arasında fərdi üslubla yanaşı, üslub təmayülünü də geniş mənada üslub termini ilə bərabərhüquqlu, adekvat məfhum hesab edən ədəbiyyatşünaslar var. Məsələn, Q. Kuçerenkonun fikrinə görə: "...üslub bu və ya başqa metod daxilində bir qrup yazıçının başlıca ideya-bədii xüsusiyyətlərinin birliyi deməkdir".[1]

Məhz bu iki kateqoriyanın qarşılıqlı əlaqə və nüfuzetmə aspektindən nəzərdən keçirilməsi bütövlükdə fərdi üslubun xarakterini müəyyənləşdirməklə yanaşı, onun tipoloji baxımdan öyrənilməsi üçün də düzgün metodoloji zəmin yaradır. Sosializm daxilində müxtəlif üslubların və üslubi təmayüllərin mövcudluğu haqqındakı nöqteyi-nəzər demək olar ki, bu yaradıcılıq metodunun özü ilə yaşıddır.Vahid metoda münasibətdə

[1] Кучеренко Г. Эстетическое многообразие исследований в социалистическом реализме. Москва: Просвещение, 1966, с.178.

üslublar fərdi mövqedə dayanır, daha çox üslubi təmayüllər şəklində formalaşır. Üslub tiplərinin müəyyənləşdirilməsi prosesində müxtəlif amillər əsas götürülə bilər. Tipoloji təsnifat prinsipinə çevrilə biləcək belə amillərdən biri də (və bəlkə də ən başlıcası) ədəbi növlərdir. Çünki onların hər birinin artıq müəyyənləşmiş, obyektiv "siması" vardır. Ümumiyyətlə, nəsrin üslub tipologiyasının araşdırılmasında əbədi janrların da mövqeyinə etinasızlıqla yanaşmaq olmaz, lakin yadda saxlamaq lazımdır ki, janr bir o gədər də etibarlı tipoloji prinsip hesab oluna bilməz. Çünki müasir dövrdə bəzi janrlar öz klassik ölçülərini qoruyub saxlaya bilməmişdir. Elə bu səbəbdən də nasirlər öz əsərlərində həyatı təsvir etmək üçün daha tez-tez sinkretik janrlara müraciət edirlər. Bu baxımdan hər hansı bir üslubi xüsusiyyətin yalnız romana, yaxud yalnız povestə xas olduğunu iddia etmək o qədər də inandırıcı səslənmir. Lakin bu heç də üslubun tipoloji tədqiqində janrın əhəmiyyətsiz olduğunu güman etməyə əsas vermir. Sovet ədəbiyyatşünaslığının tipoloji tədqiqat təcrübəsindən də gördüyümüz kimi, bəzi hallarda dilin əsas üslubyaradıcı amil hesab olunması üslub tipologiyasının yalnız linqvistik prinsiplərlə müəyyənləşdirilməsinə gətirib çıxarmışdır. Ayrılıqda bədii üslubun heç bir üslubdaşıyıcı və üslubyaradıcı amili bu ədəbi-estetik kateqoriyanın tipoloji tədqiqi üçün tam zəmin yarada bilməz. Üslub tipologiyasının prinsiplərini müəyyənləşdirərkən məsələyə daha ciddi nəzəri-estetik meyarlarla yanaşmaq, onun ayrı-ayrı komponentlərinin məzmunu deyil bütövlükdə bu kateqoriyanın təbiətini aşkara çıxaran ən başlıca cəhətləri diqqət mərkəzinə çəkmək gərəklidir.

***"Yeni nəsr" ədəbiyyatında üslublar" adlanan üçüncü yarımfəsildə*** bu dövrdə mövcud olan zəngin üslublar təhlil obyektinə çevrilir.

Yeni Azərbaycan nəsrinin novator xarakterini müəyyənləşdirmək üçün üslub müxtəlifliyi, üslubi təmayüllər, üslub istiqamətləri baxımından öyrənilməsi vacibdi. Bu yarımfəsildə yeni nəsrin üslub istiqamətləri müəyyən edilir. Məsələn, analitik və lirik-psixoloji üslub xüsusiyyətləri S.Əhmədovun "Toğana" romanı və Anarın "Macal" povestində təhlil olunur. Bu üslub istiqamətindən istifadə edən sənətkarlar psixologizmi bütöv bir sistem səviyyəsində təzahür etdirərək, qəhrəmanların düşüncəli, mürəkkəb təbiətli olduğunu göstərirlər.

Lirik-psixoloji üslubun istiqamətləri 70-80-cı illərdə Elçinin "Bir görüşün tarixçəsi", "Toyuğun diri qalması", "Bu dünyadan qatarlar gedər", "Baladadaşın toy hamamı", İ.Məlikzadənin "Küçələrə su səpmişəm",

"Talisman", "Dədə palıd", "Yaşıl gecə", "Gümüş göl əfsanəsi" əsərləri əsasında təhlil olunur.

"Yeni Azərbaycan nəsri"nin ədəbiyyatda bir təmayül kimi diqqəti cəlb etməsində, heç şübhəsiz, lirik-psixoloji üslubun böyük rolu olmuşdur. Elçinin nəsrində lirik-psixoloji üslub daha aparıcıdır. O, yazıçının və onun mənsub olduğu ədəbi nəslin həyatın və gərçəkliyin, cəmiyyət hadisələrinin mənalandırılmasında lirik-psixoloji üsluba xüsusi əhəmiyyət vermiş, bu üslubu fərdi yaradıcılıq simasında, sözü necə ifadə etmək üsuluna çevirmişdir. Bədii təhkiyədə psixologizmin qabarıq tərzdə nəzərə çarpması, ruhi aləmin – insanın daxili dünyasının əks etdirilməsi məhz bu üslubun sayəsində mümkün olmuşdur. Elçinin bədii şərtiliklə qələmə aldığı hekayələrində də bu cəhət xüsusilə qabarıqdır. Lirik-psixoloji üslubun nəsrdə görünməsi və təcəssümü bir çox köhnəlmiş ifadə üsullarının aradan qalxmasına səbəb oldu. Bu da nəsrdəki keyfiyyət dəyişikliklərinin yaranmasında böyük rol oynadı.

"Yeni nəsr" məsələsinə ən ardıcıl, ən sistemli, həm məzmun, həm də forma komponentlərinin vəhdətində yanaşanlardan biri də heç şübhəsiz ki Anar olmuşdur. O, bir ədəbi-ictimai xadim və cəsarətli yazıçı kimi, əsərləri ilə zamanın bütün problemlərinə müdaxilə etməkdən çəkinmir. Anar bütün mümkün vasitələrdən istifadə edərək, ruhumuzu mənəvi dəyərlərlə qidalandırır, daha doğrusu, bizi daim gözəllik və həqiqət axtarışına səsləyir.

Bədii axtarışlarını yalnız həyat materialında deyil, eyni zamanda predmeti təhlil prinsiplərində də aparır. Onun əsərlərində nəyə görə tarixlə müasirliyin, şəxsiyyətlə xalqın, ölkə ilə planetin vahid həyatı qovuşuq təşkil edir sualının cavablandırılması əhəmiyyət kəsb edir. Buna ilk öncə, aşağıdakı fikir ən tutarlı cavabdır: "Qlobal dünyagörüşü və planetar təfəkkürü isə artıq hər cür fəlsəfi və sosial problemlərə vahid bir məcrada – bəşərin və planetin taleyi müstəvisində baxır. Bu bizim günlərdə "həqiqət axtarışının" xüsusiyyətini təşkil edir və Anarın bügünkü nəsri də elə həmin xüsusiyyətlə aşılanır".[1]

Anar "yeni nəsri" öz həqiqətini axtaran, həm də onu yalnız aydın görünən yerdə deyil, "aydınlığın qurtardığı xəttin o tayında" axtaran insanın psixoloji aləminə nüfuz edib ekzistensial problemlər qaldıran nəsr kimi xarakterizə edir. Bununla bağlı yazıçı qeyd edir ki, belə bir gerçəkliyə əsaslanıram ki, bu nəsil (60-cı illər nəzərdə tutulur) özlərinin fərdi

[1] Qasımzadə İ. Axtarışların bəhrəsi // Azərbaycan, 1978.s .204.

yaradıcılıq xüsusiyyətləri ilə bir-birindən fərqlənsə də, özlərinin dünyaduyumu, ədəbiyyatın vəzifələrini başa düşmələri, estetik prinsiplər, həyatı və zamanı dərk etmələri baxımından bir-birinə çox yaxındırlar.

"Yeni nəsr"in ideya-estetik, poetik keyfiyyətlərinə görə nə dərəcədə yeni olması ilə əlaqədar, Anar həmişə ardıcıl mövqe tutmuşdur. Məsələn, tənqidçi-filoloq Aydın Məmmədovla dialoqunda Anar onun "Mən bu istilahı (söhbət "yeni nəsr" istilahından gedir) qəbul etmirəm" iddiasına cavab olaraq: "Məsələ istilahda deyil, 60-cı illərdə yaranan nəsrin "yeni nəsr" olmasını şübhə altına almaq olmaz"[1]. Müsahibənin davamından belə məlum olur ki, Aydın Məmmədov da "nəsrdə yenilik baş verdiyini" inkar etmir, sadəcə onu ədəbi proses kimi başa düşür və qeyd edir ki, yeniləşmə əbədi prosesdir və bu baxımdan hər hansı bir xalqın ədəbiyyatının tarixində heç olmasa, hər iyirmi-otuz ildən bir müəyyən yeniləşmə prosesini gözləmək qanunauyğundur. Əslində, öz nəsri ilə Anar bütünlükdə XX əsrin sonlarının "həqiqət anını", fəlsəfi təhlilin əsasını qoyur .

Yazıçının "Ağ liman" povestinə müraciət etsək, görərik ki, bu əsər haqqında yazılan ilk məqalələrdə əsas qəhrəmanlar çox ciddi tənqid olunurlar. S.Əsədullayevin yazdığına görə, "Anarın qəhrəmanlarının idealı yoxdur, onun qəhrəmanlarının həyatı yuxu ilə real varlıq arasındadır"[2] Həqiqətən də, Anarın qəhrəmanları zahirən o qədər də mübariz görünmürlər, onlar ilk baxışda öz bezikdirici, maraqsız həyatları ilə sanki barışırlar, lakin diqqətlə nəzər yetirdikdə bu qəhrəmanların mənəvi inkişafının şahidi olursan, onların mübarizliyini zahiri hərəkətlərində deyil, həyati-idraki münasibətlərində, daxili etirazlarında görürsən.

Bu yarımfəsildə Anarın "Əlaqə", "Yaxşı padşahın nağılı", M.Süleymanlının "Şeytan", "Köç", "Ramiz Rövşənin "Daş"əsərləri də təhlil olunur. Burada iki tendensiya xüsusi olaraq nəzərə çarpır: folklorvari şərti-metaforik üslubi meyl və elmi şərti-metaforik üslub. Qeyd olunur ki, folklorvari şərti-metaforik üslubda meydana gələn əsərlərin ideya-məzmun və sənətkarlıq materialında folklordan gəlmə ünsürlər, vasitələr başlıca yer tutur. Bu tendensiyanı Anarın "Yaxşı padşahın nağılı", M.Süleymanlının "Şeytan", "Köç", "Ramiz Rövşənin "Daş", Elçinin "Sarı gəlin" və digər əsərlərində müşahidə etmək mümkündür. Sadaladığımız əsərlərdə folklor süjeti həlledici amil hesab edilir. Lakin həm folklor süjeti, həm də folklor ünsürləri belə əsərlərdə müasir fəlsəfi etik problemləri əksetdirmə işinə

---

[1] Qasımzadə İ. Axtarışların bəhrəsi // Azərbaycan, 1978, s. 205.
[2] yenə orada.

yönəldilir və elə buna görə də ilk baxışda köhnə görünən bütün əlamətlər özlüyündə və xüsusən də bədii materialın tərkibində tamamilə yeni və müasir məna kəsb edir.

Ümumiyyətlə, 70-80-ci illər nəsrinin ayrı-ayrı nümunələrində" nağılvari bir həzinlik"- simvolikaya, rəmzi ümumiləşdirmələrə yer verilməsi", folklor süjeti və motivləri mühüm yer tutur. Beləliklə,"yeni nəsr"mərhələsində nəsr yeni metod-üslub axtarışlarına meyl edir. Sosializm realizmi yerini realizmə və onun müxtəlif variantlarına verir. Azərbaycan nəsrində magik, psixoloji neorealizmə xas xüsusiyyətlər formalaşır. Nəsrdə realizmlə şərtiliyin, gerçəkliklə irreallığın sintezi qurulur. Həyat hadisələrinin realist təsvirində daha mürəkkəb formalara, bədii inikas üsullarına meyl edilir.

***"Postsovet dövrü ədəbiyyatında metod və üslub tipologiyası" adlanan ikinci fəsildə*** postsovet dövrü ədəbiyyatında metod və üslub tipologiyası mövzusu araşdırılır. Postsovet məkanında nəsrin metod-üslub tipologiyasını müəyyənləşdirərkən, diqqətə alınması gərəkən məsələlərdən biri də, bu mərhələdə fərdi keyfiyyətlərin daha çox olması, nasirlərin həyat gerçəkliklərinə münasibətdə daha çox spesifik münasibət bəsləməsidir. Ümumiyyətlə, "yeni nəsr"də aparıcılıq təşkil edən fərdi üslubçuluq postsovet nəsri üçün də xarakterikdir. Qəzənfər Kazımov 1984-cü ildə yazdığı "Roman-sarkazm" adlı məqaləsində qeyd edirdi: "Son illərin nəsri keyfiyyət, bədii forma və sənətkarlıq axtarışları baxımından tədqiqat üçün zəngin material verir. Çoxu ənənəvi nəsr üslubunda olsa da, bu əsərlərdə fərdi-üslubi yenilik meylləri güclüdür. Dünya romanında olduğu kimi, ilkin müşahidələr göstərir ki, yeni Azərbaycan nəsrində də vahid forma, vahid "üslub" yoxdur və əslində, bu, mümkün də deyil".[1] Ənənəvi olmayan bir quruluş, forma, süjet yeniliyi ilə seçilən hər bir nəsr əsəri yazıçının fərdi özünəməxsusluğunu ifadə edir.

***İkinci fəslin birinci yarımfəsli "Postsovet dövrü nəsrində ənənə və yeniliklər"*** adlanır. Postsovet məkanında mövcud üslubi istiqamətlərdən biri "yeni nəsr" tendensiyasını davam etdirən təmayül idi. Təbii ki, sovet məkanından postsovet məkanına keçərkən yazıçının (sənətkarın, yaradıcı adamın) bədii gərçəkliyə münasibəti də müəyyən dəyişikliyə uğrayır. Əgər 60-cılar nəsrində ədəbiyyata rəğmən, ədəbi tənqid və ədəbiyyatşünaslıq sosializm realizminin mövcudluğunu süni şəkildə dəstəkləyirsə, Sovet ittifaqının dağılmasından sonra onun ideologiyasından birmənalı şəkildə

---

[1] Kazımov Q.Roman-sarkazm. Web.derived: February 10, 2012 http://www.qkazimov.gen.az/arxiv/meqale.htm

imtina olundu, insan və dünya münasibətlərinin bədii təsvirinə yeni şərait yarandı. Bir tərəfdən çoxdan gözlənilən azadlığın əldə edilməsi, digər tərəfdən 1990-cı illərin meydan hərəkatları, 20 yanvar hadisələri, Qarabağ müharibəsi Azərbaycan insanını çətin vəziyyətə saldı.

Postsovet məkanında nəsrin reallığa ilk münasibəti məhz bu aspektdə yarandı. Son illərdə realist nasirlərimizin bir çox əsərləri çap olunmuşdur. Kosmoqonik-mistik fərdi dünyagörüşü ilə yazdığı "İdeal" romanından sonra, İsa Muğannanın "Cəhənnəm", "Qəbristan", "Gur Ün" povest və hekayələri realist yaradıcılıq metodunun postsovet məkanında inkişafı nümunəsi kimi maraqlıdır. Elçin bu mərhələdə dövrün aparıcı mövzularını duyub sezir, Qarabağ mövzusuna müraciət edir, "Bayraqdar", "Qarabağ şikəstəsi" əsərlərini yazır.

Azərbaycan yeni nəsrinin maraqlı nümayəndələrindən biri olan M.Süleymanlı da, ictimai-siyasi hadisələrin ədəbiyyatın bədii problematikasına gətirdiyi dəyişikliyə riayət edir, öz qələmini yeni mövzuda sınayır və onun "Erməni adındakı hərflər" romanı oxucular tərəfindən maraqla qarşılanır. Seyran Səxavət yeni nəsr ənənəsinə məxsus bir xüsusiyyəti, realizmlə simvolikanı sintez etmək prinsipinə sadiq qalır, "Yəhudi əlifbası" romanında müasir zamanın ictimai-siyasi məsələlərinə fərdi yaradıcılıq üslubunda nəzər salır. Qarabağ müharibəsi, qaçqınlarımızın psixoloji vəziyyətinin təsvirini yaradıcılığında ön plana keçirən Aqil Abbas "Qiyamət gecəsi", "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz", "Dolu" kimi əsərlərində müharibə dövründə müxtəlif xarakterli insanlar arasındakı gərgin durumları, umumiyyətlə, bu müharibənin bütün gerçəkilklərinin bədii inikasını yaratmağa çalışmışdır.

Aqil Abbasın "Çadırda Üzeyir Hacıbəyov doğula bilməz" əsərində qaçqın həyatından, qaçqın psixologiyasından, qaçqının Şuşaya qayıtmaq arzusundan və onun reallaşmasından bəhs olunur. Əsərdə hadisələr üç zaman kəsiyində təsvir olunur: Müəllimin Şuşadan qaçdığı və arvadını düşmən əlində qoyduğu zaman, prezidentin qarşısında çıxış etdiyi zaman və Ağcabədi çadır şəhərciyində yuxudan ayılıb Şuşaya getmək qərarını verdiyi zaman. Əsərdə qaçqın psixologiyası realist cizgilərlə təsvir edilmişdir. Öz doğma torpaqlarından qaçarkən, məcburiyyət qarşısında arvadını düşmən əlində qoyması, çadırda yaşadığı müddətdə daima arvadı qarşısında xəcalət çəkməsi, yurd həsrəti və torpaqdan qaçışda öz günahının nə olduğunu düşünməsi qəhrəmanın psixologiyasını formalaşdıran məqamlardır. Hər sabahını çadır şəhərciyində açan, ilk gördüyü Şuşanın dağları olan müəllimin ilk ağlına gələn fikir "kişiliyini itirdiyi günün

xəcaləti" ilə bağlı idi. "Neçə il idi o günün xəcalətindən, arvadını meşədə – qarın, şaxtanın içində düşmən əlində qoyduğu günün xəcalətindən kişiliyini itirmişdi. Gərək qaçmayaydı, sonadək vuruşaydı və ölüb qalaydı Malıbəylidə. Getdikcə daha çox hiss eləyirdi ki, can o qədər də şirin deyilmiş. Candan da şirin şeylər varmış, sadəcə olaraq qanmayıb onları".[1]

Çadırda ölmək qorxusu, müəllimi Şuşaya getməsinə səbəb olur. Şuşaya gedir və erməni Aşotdan qisas almaq məqsədilə əlindəki "limonka"nı partladır və özü də ölür, amma Aşot ölmür. "Əgər Müəllim sağ qalsaydı və Aşotun sağ qaldığını bilsəydi, Allahın heç olmazsa onun bu arzusunu gözündə qoymasına dözməzdi və ürəyi partlardı. Amma Allah Aşota yazığı gəldiyinə görə onu sağ saxlamamışdı. Allah Aşotu öldürmək xoşbəxtliyini Müəllimin hazırda səngərdə yatan oğluna saxlamışdı. Müəllimin səngərdə yatan oğlu Aşotu düz Stepanakertin ortasında asacaqdı. O gün uzaqda deyil".[2]

Şair kimi tanıdığımız S. Rüstəmxanlı da bu mərhələdə nəsrə müraciət edir. Tarixi-mifoloji, tarixi-publisitik, sənədli-tarixi romanlar yazır. Uzaq tariximizə, oğuzlara müraciət etdiyi "Göy tanrı" romanında, XX əsrin əvvəllərində baş verən hadisələrin təsvirinə həsr etdiyi "Difai fədailəri" sənədli-tarixi romanında və "Ölüm zirvəsi" nəsr əsərlərində hadisələrin epik təsvirinə meyl etmişdir. Sovet ideologiyasının uzun müddət işıqlandırılmasına icazə vermədiyi qaranlıq dövrlərin bədii problematikaya gətirilməsi postsovet nəsrinin əsas cəhətlərindəndir. Məsələn, Vidadi Babanlının "Gizlinlər" romanında yazıçının öz həyatı da daxil olmaqla faktoloji materiallara müraciət etməsi onun avtobioqrafik roman kimi səciyyələnməsinə səbəb olur. Müəllif özü də romanını gerçək roman adlandırır.

Elçin Hüseynbəylinin "Yovşan qağayılar", "Don Juan", "Metro vadisi", "Şah Abbas", "Yolayrıcında qaçış" romanları və hekayələri, Rəçad Məcidin "10 sentyabr", "Əlvida və salam" kitablarında toplanan hekayə və bədii-publisistik esseləri realizmə əks paradiqmada dayanan digər yaradıcılıq metodlarının bəzi keyfiyyətləri ilə sintez olunmuşdur.

Elçin Hüseynbəylinin "Yovşan qağayılar" əsərinin qəhrəmanı öz babasının yaddaşına girmək üçün pul kisəsinin qoxusundan və yovşan iyindən istifadə etmək istəyir. Qəhrəman babasının yaddaşını oyadıb, keçmişdə baş vermiş hadisələrin axarına düşmək istəyir. Mahmud bəyin və

[1] Abbas Aqil. Çadırda Üzeyir Hacıbəyov doğula bilməz. B: "Şuşa", 2001.s.28.
[2]yenə orada s.29

qəhrəmanın bugünkü taleyində baş verənlərin növbəli şəkildə nəql edilməsi zamandan-zamana adlayış xarakteri daşıyır, hadisələr iki müxtəlif zaman kəsiyində təsvir edilir.

Realizmdə psixoloji elemetlərə üstünlük verilməsi Nəriman Əbdürrəhmanlının "Yalnız", "Yelçəkən" və başqa nəsr əsərlərində də əsas yer tutur.

***İkinci fəslin"Azərbaycan nəsrində postmodernist meyillərin təşəkkülü" adlanan ikinci yarımfəslində*** postmodernizm ən çox toxunulan məsələlərdən biridir.

Bu mərhələdə bədii nəsrdə yeni yaradıcılıq metodlarının formalaşması prosesinə nəzər saldıqda görmək olar ki, realizmdən sonra Azərbaycan nəsrində əsas cərəyan istiqamətini qeyd edilən irili-xırdalı üslub istiqamətləri deyil, məhz postmodernizmin təşəkkül tapması təşkil edir. Əslində nəsrdə bədii gerçəkliyin yeniləşməsi və bir mərhələ xüsusiyyəti kəsb etməsi, milli şüura, milli oyanışa xidmət etmək missiyası ötən əsrin 60-cı illərindən başlamışdı. Bu dövrdə ədəbiyyata gələn nasirlər nəsli Anar, Elçin, M.İbrahimbəyov, Y.Səmədoğlu, R.İbrahimbəyov, I.Məlikzadə, S.Azəri, onların ardınca M.Süleymanlı, Məmməd Oruc, Azər Abdulla, Vaqif Nəsib, Afaq Məsud, daha sonralar Firuz Mustafa, Aqil Abbas, Saday Budaqlı, Orxan Fikrətoğlu, Səfər Alışarlı, Elçin Hüseynbəyli və başqaları nəsrdə insana və həyata yeni baxış, şəxsiyyət psixologiyasına daha həssas münasibət sərgiləyirdilər. İnsanın mənəvi-əxlaqi aləminə maraq, fərd və mühit, insan və cəmiyyət arasındakı əlaqələrin psixoloji təhlili yeni nəsr tendensiyasının əsas əlamətlərindəndir. Bu ənənəyə XX əsrin sonlarında cəmiyyətin dəyişməsinin ədəbiyyata yansıması ilə yeni inikas üsulları, bədii təsvir formaları əlavə edildi.

Yeni nəsrin banilərindən olan Anarın "Otel otağı", "Vahimə", "Qırmızı limuzin", Elçinin "Ağ qarğa" və digər əsərləri dəyişmiş bədii gerçəkliyə ilkin münasibətdən doğmuşdur. Bu fəsildə Azərbaycan nəsrinin postsovet dövrü ədəbiyyatında metod və üslub tipologiyası mövzusu tədqiq olunur. Burada Azərbaycan nəsrinin postsovet dövründə inkişafı, zaman konteksti, yeni mənimsənilmiş xüsusiyyətləri kimi aktual problemlərə toxunulur, ilk növbədə postsovet məkanında baş verən ictimai-siyasi hadisələr araşdırılır, terminin yaranma səbəbləri göstərilir. Postsovet ədəbiyyatının, xüsusən də nəsrinin əsas xüsusiyyətləri müxtəlif ədəbi meyillərin kontekstində təhlil edilir, "yeni nəsil", və "yeni nəsr" anlayışları ilə "postsovet dövrü" və "gənc nəsil" anlayışları müqayisə olunur və hər bir terminin dövrlə bağlılığı məsələsinə toxunulur.

Postsovet dövründə“yeni nəsr” Anarın, Elçinin, M.İbrahimbəyovun, Y.Səmədoğlunun, İ.Məlikzadənin, M.Süleymanlının əsərləri ilə davam edir. Onların tədqiqata cəlb etdiyimiz əsərləri bunlardır: “Vahimə”, “Ağ qarğa”, “Dolu”, “Ölüm zirvəsi”, “Qətl günü”,“Fətəli-fəthi”, “Ölən dünyam” və s.

Azərbaycan ədəbiyyatında postmodernist meyl daha çox K.Abdullanın yaradıcılığında, xüsusən “Yarımcıq əlyazma” və “Sehrbazlar dərəsi” romanlarında müşahidə olunur.

***“Nəticə”****hissəsində* metod və üslub anlayışları, onların qarşılıqlı münasibətləri nəzərdən keçirilir. Yaradıcılıq metodu, ədəbi prosesi təşkil edən digər amillər, “ədəbi cərəyan”, “axın” anlayışları ilə müqayisə edilir, üslub fenomeni, üslubi təmayül, fərdi üslub, üslub tipologiyası kimi kateqoriyalar müxtəlif elmi konsepsiyaların fonunda müqayisə edilir.

Postsovet dövrü nəsrinin əsas xüsusiyyətləri, zaman və ictimai-siyasi məkan dəyişməsinin nəsrə təsiri, bu mərhələdə Azərbaycan nəsrinin inkişaf tempi tədqiq olunur. Göstərilir ki, postsovet dövründə nəsr bir tərəfdən 60-cı illərdən gələn ənənəni qoruyursa, digər tərəfdən də dünya arasındakı divarların götürülməsi ilə əlaqədar olaraq, beynəlxalq aləmə inteqrasiya etməyə çalışır, yeni üslubi meyl və ədəbi yaradıcılıq metodlarına müraciət edir. Postsovet nəsrində modern, absurd, sürreal üslublara irili-xırdalı əsərlərdə, ayrı-ayrı nasirlərin yaradıcılığında fərdi şəkildə müraciət olunur.

***Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır.***


1. Metod və üslub bir-birini tamamlayan kateqoriyalar kimi. Azərbaycan Dillər Universiteti. Elmi xəbərlər, Bakı, 2008, №2, s.267-273.
2. Müasir Azərbaycan nəsrində folklor elementləri. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. III buraxılış, Bakı, Mütərcim, 2008, №3, s.226-230.
3. New Azerbaijani prose and its style variety. Modern Approaches in English Language and Literature, 2nd International Young Researchers Conference: Qafqaz University, Baku, 27 April 2012, p.134-138.
4. Postsovet məkanında “yeni nəsr”, metod və üslub dəyişikliyi. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri, Bakı, 2012 №5, s.317-321.

5. Формирование постмодернистских направлений в азербайджанской прозе в постсоветский период. Учёные Записки Таврического национального университета им. В.И.Вернадского. Симферополь, 2012, №2, с.199-203.
6. Postsovet dövrü ədəbiyyatında metod və üslub tipologiyası. Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2014, №3 (91), s.123-126.
7. Postsovet dövrü nəsrində ənənə və yeniliklər.Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Filologiyanın aktual problemləri mövzusunda Respublika emli-nəzəri konfrans. Bakı,7-8 may 2015, s.253-256.
8. Müasir Azərbaycan nəsrində yeni mövzu axtarışları. Ədəbiyyat məcmüəsi.Bakı, 2015, №1 s. 273-279.

**Айтен Вахид kызы Ахмедова**

# ТИПОЛОГИЯ МЕТОДА И СТИЛЯ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЫ


## РЕЗЮМЕ

В диссертации исследуются особенности азербайджанской прозы с 60-х годов XX века по постсоветский период.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

Во введении рассматриваются проблемы, связанные с актуальностью темы, предметом исследования, степенью ее разработки, целями и задачами, методико-теоретической основой, новизной, теоретическим и практическим значением работы, а также излагаются положения, вынесенные на защиту.

Первая глава диссертации “Типология метода и стиля в “новой прозе (60-е годы XX века)” состоит из трёх разделов. Здесь раскрываются понятия метода и стиля, их соотношения и различия, рассматриваются мысли и высказывания таких просветителей, как Э.Золя, Р.Декарт, В.Белинскикий и Н.Чернышевский, а также А.Назим, К.Гулиев, Г.Зейналлы, М. Гусейн.

“Новая проза” со своей структурой, сущностью и тенденциями становится ведущим литературным направлением нового исторического этапа. Но изменение времени и места приводит к изменениям как художественной проблематики и художественной действительности, так и в целостности формы и содержания.

Вторая глава “Типология метода и стиля в литературе постсоветского периода” состоит из двух подглав. Здесь исследуются такие темы, как развитие азербайджанской прозы в постсоветский период, особенности её литературного стиля и метода. Во второй главе также анализируется влияние общественно-политических событий на литературный процесс этого периода, рассматриваются понятия “постсоветский период”, “новая проза”, “новое поколение”.

Развитие “новой прозы” в постсоветский период прослеживается в произведениях Анара, Эльчина, Ю.Самедоглы, И.Шыхлы, М.Ибрагимбекова, а влияние новых постмодернистических тенденций в творчестве К. Абдуллы, в романах “Незаконченная рукопись” и “Долина волшебников”.

В заключении обобщаются теоретические и практические аспекты исследования.

**Ayten Vahid Ahmedova**

# TYPOLOGY OF METHOD AND STYLE IN NEW AZERBAIJANI PROSE

## SUMMARY

This dissertation analyses peculiarities of Azerbaijani prose in the 60s of XX century until postsoviet period.

The thesis consists of an introduction, two chapters, and list of references.

Introduction deals with problems related to the research topic aims and goals, methods and theoretical basis, novelty, theoretical and practical value of the work, and approaches submitted for defense.

The first chapter is entitled as "Typology of method and style in the "new prose" (60s of XX century) and consists of three sections. Method and style as a concept, their relations and differences are analysed in details, ideas and sayings of educators such as E.Zola, R.Descartes, V.Belinsky, N.Chernyshevsky, A.Nazim, M.Guliyev, G.Zeynally and M.Hussein are considered.

"New prose" becomes the leading literary movement of a new historical stage with its structure and trends. But post-soviet period changing of time and place leads to the changes both in terms of reality and fiction, and in the intergrity of form and content.

The second chapter entitled "Typology of method and style in the development of Azerbaijani prose in post-Soviet period, peculiarites of literary style and method. In the context are also analyzed socio-political events and their direct impact on literary process of this period, the concept of "post-Soviet" , "new prose" , "new generation".

Development of "new prose" in the post-Soviet period can be traced in the works of writers such as Anar, Elchin, Y.Samedogly, I.Shykhly, M.Ibragimbekov, and the impact of new trends is found in several postmodernist works of K.Abdullah, especially in "Incomplete Manuscript" and "Valley of the sorceres".

The Conclusion of the thesis summarizes theoretical and practical aspects of the research.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ**

На правах рукописи

**АЙТЕН ВАХИД кызы АХМЕДОВА**

# ТИПОЛОГИЯ МЕТОДА И СТИЛЯ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЫ

**5715.01** – Теория литературы,
литературный анализ и критика

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени**
**доктора философии по филологии**

**Баку – 2015**